AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

MUZEYŞÜNASLIQ KAFEDRASI

MUZEYŞÜNASLIĞIN TƏDRİSİ PROBLEMLƏRİ

II RESPUBLİKA ELMİ KONFRANSIN MATERİALLARI

BAKI -2018

Azərbaycan Respublikası Təhsil Nazirliyi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Muzeyşünaslıq kafedrası

"MUZEYŞÜNASLIĞIN TƏDRİSİ PROBLEMLƏRİ"

II Respublika elmi konfransın materialları

Konfrans Azərbaycan Respublikası Təhsil Nazirliyinin 05.04.2018-ci il tarixli F-236 saylı əmrilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilmişdir.

Bakı -2018

Redaksiya heyəti:

Mübariz Süleymanlı

Fəlsəfə üzrə elmlər doktoru, professor

Yeganə Eyvazova

ADMİU-nun Muzeyşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Məsul katib:

İlhamə Səfərova

Kulturologiya üzrə fəlsəfə doktoru, dosent

"MUZEYŞÜNASLIĞIN TƏDRİSİ PROBLEMLƏRİ" adlı II Respublika elmi konfransın materialları/ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti – Bakı – 30 noyabr, 2018

TƏŞKİLAT KOMİTƏSİ:

Ceyran Mahmudova	ADMİU-nun rektoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor (sədr)
Məryəm Əlizadə	ADMİU-nunElmvə yaradıcılıq işləri üzrə prorektoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor (sədr müavini)
Validə Məmmədova	ADMİU-nun Tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, professor
Gülşən Əliyea	ADMİU-nun Beynəlxalq əlaqələrvə tərbiyə işləri üzrə prorektoru, professor
Nailə Vəlixanlı	Azərbaycan Milli Tarix Muzeyinindirektoru, akademik
Nərgiz Abdullayeva	Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Muzeylərlə iş sektorunun müdiri
Vasif Adilov	ADMİU-nun Kulturologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent
Yeganə Eyvazova	ADMİU-nun Muzeyşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Sədaqət Əliyea	ADMİU-nun Sosial-mədəni fəaliyyət kafedrasının müdiri,kulturologiya üzrə fəlsəfə doktoru,dosent
Röya Tağıyea	Sənətşünaslıq üzrə elmlər doktoru, professor
Şirin Məlikova	Azərbaycan Xalça Muzeyininn direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

MÜNDƏRİCAT

Nərgiz Abdullayeva. Azərbaycan muzeylərinin inkişaf tendensiyası .....

Məhəbbət Mehdiyeva. Heydər Əliyev irsinin, azərbaycançılıq məfkurəsinin və dövlətçilik ideologiyasının tədqiqi və təbliğində Heydər Əliyev muzey və mərkəzlərinin rolu .....

Röya Tağıyeva. Muzeylər zamanın çağırışında.....

Gülbəniz Babaxanlı. Azərbaycanda fəaliyyət göstərən virtual muzeylərin muzey işinin təkmilləşdirilməsində rolu .....

Mübariz Süleymanlı. Mədəni irsin məzmunu, qorunması və tədrisinə dair.....

İlqar Hüseynov. Muzeyşünaslığın tədrisində beynəlxalq əlaqələr mövzusunun Azərbaycan və Gürcüstan muzeyləri nümunəsində təhlili .....

Yeganə Eyvazova. Muzeyşünaslığın tədrisinin inkişaf xronologiyası .....

Elfira Məlikova-Qurbanova. Muzeyşünaslıq elminin muzey işi ilə əlaqəli təhlili.....

Sədaqət Əliyeva. Muzeyşünaslığın kulturoloji aspektləri .....

Məleykə Həsənova. Muzey marketinqi mədəni-tarixi irsin qorunması və ötürülməsinin müasir istiqaməti kimi .....

Sevil Kərimova. Qeyri-maddi mədəni irsin muzeydə interpretasiyasına kulturoloji yanaşma

Gülşən Əliyeva. Muzeydə interaktiv və multimedia texnologiyalarının tətbiqinin tədrisi

Pakizə Almazova. Müasir muzey menecmenti: yeni axtarışlar.....

Faiq İsmayılov. Muzeyşünaslığın tədrisinin bəzi məqamları .....

İlhamə Səfərova. Arxiv müəssisələrində elmi-tədqiqat və metodiki işin təşkili.....

Afət Allahverdiyeva. XXI əsrdə muzey mütəxəssislərinin hazırlanması.....

Mira Məmmədxanova. Совместнаядеятельность музея и вуза всоздании единого образовательного пространства.....

Məlahət Fərəcova. Роль музеев в образовательном процессеАзербайджана .....

Minaxanım Əsədova. Mədəni irsin təbliğində memorial muzeylərin əhəmiyyəti və turizmdə rolu

Rahibə Əliyeva. Abidələrin muzeyləşdirilməsi və tədrisi .....

Oqtay Sultanov. Muzey və kitabxanaların informasiya-maarifləndirici funksiyalarının inkişaf etdirilməsi .....

Zərifə Əliyeva. Muzey pedaqogikasının tədrisində H.Zərdabinin şəxsiyyətlə bağlı fikirlərindən istifadə.....

Xatirə Bəşirli. Günün çağırışları: muzeylərin elmi xarakterinə dair .....

Mətanət Məmmədova. Vahid tədris məkanının yaradılmasında muzeylərin ali məktəblərlə əməkdaşlığı .....

ELFİRA MƏLİKOVA-QURBANOVA HACIBABA qı
Sənətşunaslıq üzrə fəlsəfə doktoru, dosent, Ba
elfira.qurbanova@mail.r

MUZEYŞÜNASLIQ ELMİNİN MUZEY İŞİ İLƏ ƏLAQƏLİ TƏHLİLİ

Açar sözlər:universitet, elm, muzey, təhsil, təcrübə

Əsirlərlə fəaliyyət göstərən muzeylərdə, ilk baslanğicdan, müasir dövrə kimi gedən inkişafın araşdırılaraq tədqiq edilməsi, ayri-ayri ölkələrdə kiçik və ya böyük həcmli, məlumatlandırıcı xarakterli informasiyaların çap edilməsi "Muzeyşünaslıq" elmininnəzəri biliklərinin yaradılmasının əsasını qoydu. Muzeyşünaslıq elmi, muzey fəaliyyətinin nəzəri məcmusu olmaqla bərabər,muzey eksponatlarinin aid olduğu elmi istiqamətləri də öyrənir.Bu baximdan muzeyşünasliq çoxşaxəli elm sahəsi olaraq bir neçə elmlərlə qarşiliqli əlaqə və kəsişmə nöqtələrinə malikdir. Muzey işinin təşkil olunması kompleks elmi-kütləvi iş ilə bağlıdır. Muzeyşünaslığın bir elm kimi meydana gəlməsi də, məhz bu fəaliyyət prosesinin nəticəsidir.Məqalədə Respublikada fəaliyyət göstərən muzeylərin və o cümlədənADMİU-nun Kulturoloqiya fakultəsində fəaliyyət göstərənMuzeyşünaslıq kafedrasının "Muzeyşünaslıq, arxiv, abidələrin qorunması" ixtisasının əhəmiyyətini önə çəkərək, muzeyşünas kadrların Universitetdə təhsil aldığı müddətdə muzey fəaliyyəti ilə əlaqəli işin mühüm faktorları dərindən təhlil edilir və bu problemin müvəffəqiyyətlə həll edilməsi üçün təkliflər verilir.

Cəmiyyətin inkişafı ayrı-ayrı tarixi dövrlərdə elm sahələrinin təşəkkülü və tərəqqisi ilə sıx əlaqədar olmuşdur.Cəmiyyətin inkişafında elmin və mədəniyyətin rolu əvəzedilməzdir.Azərbaycan mədəniyyətinin inkişaf perspektivlərini müəyyən etməyə çalışarkən sivil dünyanın mədəni təcrübəsi ilə yanaşı, mədəniyyətimizin yaxın keçmişdəki vəziyyətini təhlil etməyə də ehtiyac duyulur.Mədəniyyət müəssisələrinin üzləşdiyi çətinliklər içərisində şəxsi və işgüzar keyfiyyətləri müasir tələblərə cavab verəcək kadrlar qıtlığı da başlıca əngəllərdəndir. Çünki yalnız mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarının, milli mədəniyyət sərvətlərinin qorunub saxlanmasını və inkişafını, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasını, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyən edən Azərbaycan Respublikasının "Mədəniyyət haqqında"Qanununun əsas müddəalarını həyata tətbiq edəcək, onu öz əməli fəaliyyətləri ilə reallaşdıracaq, bu qanunun işlək mexanizmini yaradacaq mütəxəssislər ordusu formalaşdırmadan,məqsədyönlüperspektivlərdən danışmaq olmaz. Belə bir məsuliyyətli vəzifənin

halli bütün səlahiyyətli dövlət və hökumət strukturları, qurumları ilə yanaşı, təhsil müəssisələrinin keyfiyyət göstəricilərindən, tədris proqramlarının, dərsliklərin və s. səviyyəsindən də çox asılıdır.

Muzey fəaliyyətinə daxil olan iş formaları aşağıdakılardır.

1.Muzey kolleksiyalarının və əşyalarının komplektləşdirilməsi, onların qeydiyyatının, mühafizəsi;

2.Muzey kolleksiyalarının, arxiv, kitabxana və digər materiallar əsasındasəmərəli elmi-tədqiqatları;

3.Muzey ekspozisiyalarının və sərgilərin təşkili, muzey sahəsində dizayn və tərtibat işlərinin həyata keçirilməsi;

4.Muzey əşyalarının konservasiyası və bərpasınınbütün növləri;

5.Muzey kolleksiyaları kataloqlarının hazırlanması və nəşr olunması;

6.Muzeydaxili kütləvi tədbirlərin təşkili və muzeydənkənar tədbirlər;

7.Muzey mühiti vasitəsilə tərbiyə prosesinin səmərəli təşkili;

8.Muzey kolleksiyalarının tətbiqi.

Beləliklə, muzey: maddi-mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, tədqiqi, öyrənilməsi və təbliğini həyata keçirən mədəniyyət və elmi-tədqiqat müəssisəsidir.

Muzeylərdəkeçirilən təcrübələrüçün mühüm olan təkliflər.

Muzeylərdə elmi-maarif və mədəni-kütləvi işin təşkili istiqamətində muzey birliklərinin yaradılması şəxsiyyətin yaradıcılıq və maraq dairəsinin genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan muzey nəzdində müxtəlif bədii texniki və muzeyşünaslıq profilli dərnək və kollektivlərin yaradılması təəccüb doğurmur. Bəzi muzeylərdə xalq təsviri və dekorativ tətbiqi sənəti dərnəkləri də fəaliyyət göstərir.Dərnəklərdən fərqli olaraq, muzeylərdə maraq klubları əhalinin tərbiyə sistemində ictimai əsaslarla fəaliyyət göstərir. Onların heyəti pedoqoji prosses kimi maraqlar üzrə formalaşır. Hər bir klub fəaliyyətinin xüsusiyyətlərinə uyğun olan təşkilati formanı seçir. Klub bir neçə bölmədən (seksiyadan) ibarət ola bilər. Bəzi hallarda onun nəzdində dərnəklər fəaliyyət göstərir. Klubun fəaliyyətinə onun üzvləri tərəfindən seçilmiş şura rəhbərlik edir. Muzeylərdə daha çox gənclər klubları təşkil edilir. Həmin klubların həvəskarları əsasən yuxarı sinif şagirdlərindən və texniki peşə məktəbləri fəallarından ibarət olur.

I qrup - ümumtəhsil və ictimai-siyasi xarakterli klublar. Bu klubların proqramı nisbətən geniş olur. Məsələn: "Gənc tarixçi və diyarşünaslar klubu" reqionun ümumi tarixinə aid materialları toplaya bilər.

II qrup -tariximizin və müasir dövrün ayrı-ayrı aktual məsələlərinin tədqiqi ilə məşğul ola bilər (gənclərin peşə yönümünə dair klublar, "Gənc ixtisasçılar" klubları və s.)

III qrup – "Gənc muzeyşünaslar" klubları daxildir.

Muzeylər nəzdində həmçinin böyüklər üçün də müxtəlif janrda dərnəklər və maraq klubları yaradıla bilər.

I– II kurs bakalavrların muzeylə tanışlığı

Muzey ilə ümumi tanışlığın keçiriməsi ön planda olmalıdır. Tələbələrin neçənci kursda təhs aldıqları ilk növbədə hansı şöbəyə yönəlmələrini müəyyən edir. Məhz ona görə də muzeylə tələbələrin tədris planı ilə tanış olmalıdır.

- Muzeyin xarici görünüşü, yəni: tarixi bina ilə tanışlıq (binanin inşa edilmə tarixi,arxitektu ilkin istifadəsi və muzeyə verilmə tarixi və s.) Fəaliyyət göstərən muzey binalarının xari görünüşünün nəzərə çarpan tərəfində binanın inşa tarixi haqqında qısa xülasə obyektin tarı dəyərini təsdiq edir.
- Tələbələri muzeyin daxili strukturu -foyedən başlayaraq bütün mərtəbələrlə, izahlı şəkildətan etmək.

III – IV kurs bakalavrlarınmuzeylə tanışlığı

- Şöbələrin funksiya və fərqinin izahı;
- Fondların funksiya və fərqinin izahı..

Şöbə və Fondlarla tanışliq - I kursdan IY kursa qədər keçirilənixtisas fənlərinin ardıcıllığına əsasən təqdim edilir. Birincişöbə ilə tanışlıq üçün nəzərdə tutulan mərhələlərbütövlükdə muzey şöbə və fondlarinin hər birinə şamil edilməlidir. Məhz ona görə də, 1-ci şöbə üçün verilən i ardıcıllığı digər şöbə və fondlar üçün də nəzərdə tutula bilər.

1."Elmi-maarif və ekskursiya şöbəsi"nin əməkdaşları ilə tanışlıq:

- Şöbənin yaranma tarixi;
- Muzeyin yarandığı dövrdən bugünə kimimüdir və işçiləri haqqında məlumat;
- Şöbə əməkdaşlarının iş planı ilə tanışlıq;

Bir şöbə ilə tam tanış olduqdan sonra:

- İşə yardım etmək məqsədilə tələbələr arasında iş bölgüsünün aparılması;
- Ziyarətçilərlə sosial sorğunun keçirilməsi qaydalarını nəzəri və praktiki cəhətdən izahı.

2."Elmi ekspozisiya və sərgilərin təşkili" şöbəsi:

3."Sənədli mənbələr" fondu

4."Arxeologiya və elmi fond" şöbəsi

5."Etnoqrafiya elmi fond" şöbəsi

6." Hədiyyələr və xatirə əşyaları" fondu

7." Neqativ" fondu

8."Təsviri materiallar" fondu

9."Silahlar və bayraqlar" fondu

10."Təsviri materiallar" fondu-elmi mənbələrdən məlumatların alınması;

11."Numizmatika və epiqrafiya elmi" fondu şöbəsi-elmi məlumatlar verildikdən sonra, tələbələrin bu istiqamətdə maraq dairəsinin öyrənilməsi;

12."Xarici əlaqələr və elmi kütləvi iş" şöbəsi.Hal-hazirda ən aktual məsələlər bu şöbənin fəaliyyəti ilə bağlıdır. Tələbələri illik hesabatlarla tanış etmək;

13."Bərpa laborotoriyası"nin fəaliyyəti çox şaxəliolduğu üçün bura bir qədər böyük zamanın ayrılması tələb olunur.Bərpa işinin xüsusiyyətləri vəmetodları haqda məlumatların verilməsi. Bərpa laboratoriyasının hər bir mütəxəssisi müəyyən zaman kəsiyində məlumat verə bilər.Bu məlumatların verilməsi, vaxtından asılı olmayaraq tələbələrin sayına görənisbətən böyük audutoriya tələb edir. Əsas məlumatların bu sistemlə verilməsi məqsədəuyğundur.

1.Bərpa haqda ümumi məlumatların dinlənilməsi;

2.Tarixi faktları: hansı muzey eksponatları məhz bərpa vasitəsilə həyata qaytarılıb.

3.Faktları muzey ekspozisiyalarında axtarmaq üçün müxtəlif muzeylərə yürüş və ekskursiya mətnləri ilə maraqlanmaq;.

Muzey kitabxanası tələbələrin mütəmadi olaraq araşdırma aparacağı məkan olmalıdır.

1. Kitabxananın inventarı ilə yaxından tanışlıq;

a) Kitabların məzmunu ilə tanışlıq;

b) Hər ay hər hansı kitabın müzakirə edilməsi;

c) Kitabın məzmunu təhlil edilərkən hər bir fakta xüsusi diqqət yetirmək.

Muzey haqda mənfi və ya müsbət rəylərin təhlili (muzey işçiləri və müəllimlərin iştirakı ilə).Muzeyin Dövlət tərəfindən maliyyələşdirilməsi, mədaxil və maxaric xərcləri haqqında, qanuni aktların məzmunu haqqında tanıdıcı məlumatların verilməsi.

Müxtəlifxarici olkələrin təhsil sistemi öz spesefik xüsusiyyətlərinə görə fərqlənir.Ali məktəblərdə konkret ixtisaslaşma verilmir; tələbələr geniş profil üzrə ixtisaslaşır. Muzeylər özləri gələcək işçilərin hazırlanması ilə məşqul olur. Məsələn, Kolumbiya və Amerikanın təcrübəsinə görə muzey işçilərini yalnız universitet hazırlayır. 3-cü kursdan başlayaraq Universitetin ciddi nəzarəti altında aktiv təcrübə başlanır. Bunun nəticəsində tələbə diplom işinə hazırlaşarkənonun gələcəkdə hansı real işlə üzləşəcəyi məlum olur. Muzey tərəfindən ona lazım olan mütəxəssislərlərin sifarişi böyük əhəmiyyətə malikdir. Bu sistem Amerikada həyata keçirildiyi halda Rusiyada istifadə edilmir. Muzeylər yeni olan sosial məsələlər və funksiyaları özünküləşdirir. Onlar universtetlərin hazırlamadığı və muzeylərin bu istiqamətdə təcrubəsi olmayan yeni fəaliyyətə başlayırlar. Vəziyyətdən çıxış yolu muzeylərin ayrica bir institut kimi yaradılmasıdeyil! "Yeganəakademik proqram"ın yaradılması vacib vəməqsədəuyğundur. Burada bir sıra suallar meydana çıxa bilər: 1. Muzey və təhsil müəssisələrinin qarşılıqlı əlaqələri mütəxəssislərin yetişməsində nə kimi mühüm əhəmiyyət kəsb edir? Əsas problemlər nədən ibarətdi? Müsbət nəticələr əldə etmək üçün birgə işin

səmərəsi nə verə bilər? Muasir təhsil sistemini diqqətlə analiz etdikdə məlum olur ki, son on il ərzində əhəmiyyətli dərəcədə dəyişikliklər baş vermişdir. Bu təhsil alan kontinqenta, tədris prosesinin strukturuna o cümlədən muzey təcrübəsi sahəsinə aiddir. Məsələn, Sovet dövrünün arxiv mənbələrindən götürülən məlumatlara görə, sənətşünaslıq fakultələrinin formalaşdığı dövrdə (Muzeyşunasliq ilk dəfə sənətşünaslıq fakultəsinin tərkibində yaradılmışdır) kursun strukturunun necə olması və əsas hansı fənlərin keçirilməsi suali muzey müdirlərinə verilirdi. Beləliklə, incəsənət tarixinin öyrənilməsi hər şeydən əvvəl muzey praktikası ilə əlaqələndirilirdi. İşin bu istiqamətdə aparılması SSRİ Xalq Komissarları sovetinin tərkibində fəaliyyət göstərən Ümumittifaq komitənin incəsənət şöbəsinin 4 oktyabr 1936-cı il 522 saylı əmrinəuyğun olaraq qurulmuşdur. 1.Rəngkarlıq heykəltəraşlıq, memarlıq İnstitutunun sənətşunaslıq fakültəsi artıq mövcud olan rəssamlıq şöbəsində təhsil alan tələbələrin mövcud sisteminə uyğunlaşırdı. Qəbul edilən əsasnamə sənətşünaslıq təhsil prinsipləri və tədris proqramının formalaşması ilə əlaqədar böyük diskussiyalara səbəb oldu. Zənnimcə, bu təcrübədən istifadə etmək nəzəri və təcrübi istiqamətlərin daha yaxın şəkildə inkişafını və tələbələrin muzey fəaliyyətinəyaxınlaşmasına yardım edərdi. Məsələn, muzeylərdə çalışan, o ixtisasını sevən mütəxəssislər lazımdır. Muzey rəhbərləri bu problemlərlə üzləşir. Hansı şöbədə boşluqların və mütəxəssis çatışmazlığını o hərkəsdən çox bilir. Belə halda muzey ik.i üzrə təhsil verən ali məktəblərlə işgüzar əlaqələrin qurulması mütləqdir. Məsələn, muzeyşünasların sistemli şəkildə muzey rəhbərləri ilə görüşlərinin təşkili real faktlar əsasında meydana çıxan problemlərin aradan qaldırılması üçün nəzərdə tutulur. Muzeyşünas kadrların təhsil və təcrübə işində mükəmməl biliklərə yiyələnməsi uzərində planlı şəkildə, əlaqəli işlərin aparılması haqda təkliflər verilir. Məqsəd yüks\ək ixtisaslı muzeyşünas kadrların hazırlanmasıdır.

Ədəbiyyat

1.EMəlikova. Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası.Dərslik.Bakı 2011.271s

2. Музееведение. Музейи исторического профеля. Москва. 1988 г.431 с.

3.Музейное дело России. 3-е изд., испр. и доп. /Под ред. Каулен М.Е. (Ответственный редактор), Коссовой И.М. Сундиевой А.А. – М., ВК. 2010. – 676 с.: ил.

Эльфира Маликова-Курбанова Гаджибаба кызы

Взаимный анализ музейной работы в сфере музееведения

Ключевые слова: университет, наука, музей, образование, практика

Резюме

Современная теория, основываясь на общие мысли музееведения смотрит на нее как «Науковедение» которая используется среди наук. В статье идет речь о музеях действующих в

52

республике в том числе о кафедре музееведения со специальностью «Музееведение , архивное дело и охрана памятников»в АГУКИ. Здесь идёт речь о деятельности кадров во время образования, основные факторы работы и решения проблемы связанные с ним.

Elfira Malikova-Qurbanova

Museologic analysis associated with the theory of the museum

Key words: university, science, museum, education, practice

Summary

Modern theory based on the common thoughts of museology looks at it as the "science of science" that is used among the sciences.The articles deals with museums operating in republic, including thr department of museology with a specialty "Museology, archive work and protection of monuments" at USECA. Here we are talking about the activities of personnel during education, the main factors of work and solving problems associated with it.